# Qədim şəhərdə sənətkarlıq

**İbrahimxəlil xanın və Mehdiqulu xanın hakimiyyəti dövründə Şuşa iri sənətkarlıq və ticarət mərkəzinə, Qafqaz, Rusiya, Türkiyə, Almaniya, Böyük Britaniya və digər ölkələrdən idxal üçün cəlbedici məkana çevrilmişdi.**





Şuşa sənətkarlarının məmulatları çox məşhur idi, onları əldə etmək üçün xarici ölkələrdən bura tacirlər gəlirdi. Məhsula tələbat şəhərdə ustaların, usta köməkçilərinin, kiçik müəssisələrin, sənətkarlıq sexlərinin çoxalmasına və keyfiyyətin yüksəlməsinə səbəb olurdu.

Tarixi mənbələrdə XVIII əsrin sonu-XIX əsrin əvvəllərində artıq Şuşada çoxlu sayda manufakturaların və 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. 1809-cu ilin məlumatına görə, o dövrdə qala şəhərdə 1500 toxucu dəzgahı vardı. Bu da ən azı 1500 sənətkar demək idi.

Şuşada sənətkarlar şəhərin ən zəngin sakinləri hesab olunurdu, onlar bu gözəl məkanın baxımlı yerlərində, bahalı evlərdə yaşayır və vaxt keçdikcə tacirlərlə birgə şəhər əhalisinin yarısını təşkil edirdi.

Statistikaya əsasən, XX əsrin əvvəllərində Şuşada artıq 870 emalatxana, 2 minə yaxın dükan vardi. 1830-cu ildə burada 200 tacir ailəsi, 266 sənətkar yaşayırdı. Bu dövrdə sənətkarların sayı 10 dəfə, tacirlərin sayı 7,5 dəfə artmışdı.

Demək olar ki, bütün ailələrdə tikiş, xalçaçılıq və toxuculuq dəzgahları var idi. Bir ailənin yun və ipək məmulatlarla tələbatı ailə üzvləri tərəfindən ödənilirdi. Evdə rəngkarlıq, dəri emalı, sabun bişirmə işləri həyata keçirilirdi. Burada həm də xırda dülgərlik işləri də görülürdü. Mis qab-qacaq, zərgərlik məmulatları, ayaqqabı, üst geyimləri, xalçalar və bəzən silahlar müştərinin sifarişi əsasında hazırlanırdı.

Şuşa sənətkarları şəhərin sıx məskunlaşmış məhəllələrində, xüsusən də Rastabazar və Aşağıbazarda işləyirdilər. Adətən bir sahənin sənətkarları eyni küçədə və ya məhəllədə yaşayırdı. Məsələn, dəmirçilər Şeytanbazarda, şirniyyatçılar Rastabazarda, zərgərlər İrəvan küçəsində məskunlaşmışdılar. Bəzi emalatxanalar karvansaralarda yerləşirdi. Şəhərin ən yaxşı karvansarası hesab olunan Mirsahib oğlu Məşədi Şükürün karvansarasında 30-a yaxın dükan var idi.

Qədim Şuşada sənət növlərinin böyük əksəriyyəti nəsildən-nəslə ötürülürdü.

XIX əsrin sonunda Şuşada zərgərlik sənəti inkişafının zirvəsinə çatmışdı. Yerli ustalar dünyanın ən yaxşı zərgərlərindən hesab olunurdu. Xaricdə Şuşa ustalarının hazırladığı zərgərlik məmulatları yüksək qiymətləndirilirdi. Yerli əhali arasında gümüş və qızıldan toqqalar, həm sadə, həm də bəzədilmiş üzüklər məşhur idi. Şuşanın zərgərlik məmulatlarını hətta kasıb ailələr toy günü gəlinlərə hədiyyə edirdilər.

## Şuşa xalçaçılıq sənətinin əsas mərkəzlərindən olub

Dünya bazarında Şuşa xalçaları "Qarabağ xalçaları" kimi tanınıb. XIX əsrin 80-90-cı illərində Şuşada xalçaçılıq məhsulları həcminə və keyfiyyətinə görə birinci yeri tuturdu. Xalça məmulatları arasında lifsiz xalçalar, cecim, xurcun, çuval, məfrəş kimi məmulatlara böyük tələbat var idi. Xalçaların keyfiyyəti və rəqabətqabiliyyətliliyi əsasən rənglərin saflığı və dayanıqlığı ilə müəyyən olunurdu. Şuşada bununla əlaqədar çoxlu sayda rəngləmə emalatxanaları mövcud idi.

Şuşa sənətkarları metal və taxtadan qab-qacaq və yəhər, qızıl və gümüşdən məişət əşyaları hazırlayırdılar. Məişət qablarının əksəriyyəti qırmızı misdən düzəldilirdi. Qabların üzərinə bitki ornamentləri və səhnəciklər çəkilirdi. Bu cür qablar sənət əsəri hesab olunurdu.

Ən qədim sənətlərdən biri də dulusçuluq idi. Su, şərab, süd və yağ saxlamaq üçün sadə gil qablar sakinlər arasında çox məşhur idi.

Zaman keçdikcə məhsullar təkcə sifarişlə deyil, həm də bazara çıxarmaq üçün hazırlanırdı. Kiçik kustar müəssisələr fabriklərə çevrilirdi.

Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir.

***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 3 sentyabr.- S.7.